*“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 11 aprel 2015-ci il | № 27 (1943) | Qiyməti 25 qəpik

## Rəsmi xronika

*✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları üzrə komissarı Yohannes Hanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq əlaqələrinin bütün istiqamətlərdə, o cümlədən iqtisadi, enerji, mədəni, turizm və digər sahələrdə inkişaf etdirilməsinin əhəmiyyəti vurğulandı, insan haqları məsələləri ətrafında fikir mübadiləsi aparıldı, Azərbaycanda bu istiqamətdə uğurlu işlərin həyata keçirildiyi bildirilərək ölkəmizdə sərbəst toplaşma azadlığı, media, fikir, internet və digər azadlıqların təmin olunduğu qeyd edildi. Söhbət zamanı bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün də yaxşı imkanların olduğu vurğulandı.*

* * *

*✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti, Səudiyyə Ərəbistanı Krallığının gənclər və idman naziri, Milli Olimpiya Komitəsinin prezidenti Şahzadə Abdullah bin Mosaad bin Əbdüləziz Əl Səudun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Səudiyyə Ərəbistanına səfərini və Kral Salman bin Əbdüləziz Əl Səudla görüşünü məmnunluqla xatırlayan dövlətimizin başçısı ailəsi ilə birlikdə müqəddəs Kəbədə dua etmək üçün yaradılan yüksək şəraitə görə Səudiyyə Ərəbistanının Kralına minnətdarlığını ifadə etdi. Məkkədə, Mədinədə və Ciddə şəhərində, İslam Əməkdaşlıq Təşkilatında olduğunu vurğulayan Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlığın və İslam aləmində həmrəyliyin daha da möhkəmləndirilməsində bu səfərin önəmini qeyd etdi. Şahzadə Abdullah bin Mosaad bin Əbdüləziz Əl Səudun Azərbaycana səfərinə toxunan dövlətimizin başçısı bu səfərin ölkələrimiz arasında idman sahəsində əməkdaşlığın genişləndirilməsi baxımından da rolunu vurğuladı.*

* * *

*✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Birləşmiş Ərəb Əmirliklərinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Salem Xalifa Mohamed Əl-Ğaflini diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.*

*Dövlətimizin başçısı İslam aləminin müqəddəs ocaqlarının ziyarətindən məmnunluğunu bildirdi. Birləşmiş Ərəb Əmirlikləri ilə əlaqələrin genişləndirilməsində ölkəmizin maraqlı olduğunu deyən Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi.*

**AzərTAc-ın materialları əsasında**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Biz tam üstünlüyü əldə etmişik

### İrimiqyaslı əməliyyat-taktiki təlimləri keçirilir



***Müasir dövrdə Azərbaycanın dövlət rəhbərliyi tərəfindən ordu quruculuğunun inkişaf etdirilməsinə xüsusi önəm verilir. Prezident, Ali Baş Komandan İlham Əliyev dəfələrlə həm diplomatik görüşlərdə, həm də dövlət tədbirlərində öz qətiyyətli mövqeyini ifadə edərək bildirib ki, Azərbaycan Ordusunun dünyanın müasir orduları səviyyəsində inkişafına nail olmaq onun siyasi kursunun ən başlıca istiqamətlərindən biridir.***

Əslində illərdən bəri Ermənistan-Azərbaycan və Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində heç bir irəliləyişin əldə edilməməsi işğalda olan ərazilərimizin hərbi yolla azad olunması üçün qəti addımların atılmasını tələb edir. Elə bu məqsədlə son vaxtlar Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin daha da gücləndirilməsi məqsədi ilə dövlət və ordu rəhbərliyi tərəfindən əsaslı tədbirlər görülür. Artıq son bir il ərzində hərbi hissə və birləşmələrin maddi-texniki təminatının gücləndirilməsi, hərbi qulluqçuların sosial şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülüb. Bu gün elə bir bölgə tapılmaz ki, orada əsgər və zabitlərimiz üçün müasir sosial şərait yaradılmasın. Əvvəlki dövrlərlə müqayisədə ən müasir silah və texnika alınaraq şəxsi heyətin ixtiyarına verilir.

Bu yaxınlarda keçirilən el şənliklərində iştirak edən dövlətimizin başçısı ordumuzun son döyüş uğurlarından danışaraq işğalçı dövlətlə müqayisədə hərbi üstünlüyə nail olduğumuzu vurğulayıb. Ali Baş Komandan qeyd edib ki, "biz tam üstünlüyü əldə etmişik. Mən tam əminəm ki, biz istədiyimizə nail olacağıq, tarixi ədaləti, ərazi bütövlüyümüzü bərpa edəcəyik".

**(Ardı 2-ci səhifədə)**

## Avropa İttifaqı Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəti mövqe ortaya qoymalıdır

***Aprelin 8-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Avropa İttifaqının (Aİ) Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları üzrə komissarı Yohannes Hanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə tərəflər Azərbaycan ilə Avropa İttifaqı arasındakı münasibətlərin cari səviyyəsini yüksək qiymətləndiriblər.

Azərbaycanın Avropa İttifaqına üzv olan əksər dövlətlərlə strateji tərəfdaşlıq münasibətlərinə malik olduğunu bildirən Elmar Məmmədyarov Aİ ilə də strateji tərəfdaşlıq əlaqələrinin qurulmasının vacibliyini diqqətə çatdırıb.

Görüşdə Azərbaycan ilə Aİ arasında enerji sahəsində tərəfdaşlıq, TAP və TANAP layihələrinin əhəmiyyəti qeyd olunub.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqların cari vəziyyəti haqqında məlumat verən nazir digər Avropa institutları kimi, Aİ-nin də münaqişə ilə bağlı qəti mövqeyinin ortaya qoyulmasının vacibliyini söyləyib. Mövcud status-kvonun qeyri-davamlı və qəbuledilməz olduğunu deyən Elmar Məmmədyarov əlavə edib ki, status-kvonun dəyişdirilməsi və münaqişənin həlli üçün ilk növbədə Ermənistan silahlı qüvvələri işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmalıdır. Elmar Məmmədyarov işğal və təcavüzün aradan qaldırılması və münaqişənin həlli nəticəsində regional inkişaf üçün yeni imkanların yaranacağını diqqətə çatdırıb.

Ölkəmizdə qanunun aliliyinin təmin olunduğunu bildirən nazir Elmar Məmmədyarov Azərbaycanın ardıcıl demokratik inkişafının davam etdirildiyini bildirib.

Söhbət zamanı tərəflər Riqada keçiriləcək "Şərq tərəfdaşlığı" təşəbbüsünün növbəti sammitinin əhəmiyyətini vurğulayıblar. Həmçinin elm, təhsil, humanitar və digər sahələrdə əməkdaşlığın daha da dərinləşdirilməsinin əhəmiyyəti qeyd edilib.

Görüşdə qarşılıqlı maraq doğuran regional məsələlər barədə fikir mübadiləsi aparılıb.

**AzərTAc**

## Ermənistana münasibətdə sülhə məcburedici mexanizmlər ciddi surətdə nəzərdən keçirilməlidir

***Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanın Moskvada keçirdiyi mətbuat konfransında söylədiyi fikirlərə münasibət bildirib.***

H.Hacıyev deyib: "Ermənistan xarici işlər nazirinə xatırlatmaq istərdik ki, Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə əlaqədar ATƏT-in Minsk Qrupunun həmsədrlərinin mövqeyi həmsədrlərin mandatına dair 1995-ci il Budapeşt sənədində qeyd olunduğu kimi, beynəlxalq hüquq, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsaslanır. BMT Təhlükəsizlik Şurasının qətnamələrində isə Ermənistan qoşunlarının işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, qeyd-şərtsiz və tam çıxarılması tələb edilir.

Əgər Ermənistan xarici işlər naziri iddia edirsə ki, Ermənistanın münaqişənin həllinə dair mövqeyi beynəlxalq ictimaiyyət və ATƏT-in Minsk Qrupunun həmsədrlərinin mövqelərinə uyğundur, onda Ermənistan öz işğalçı qoşunlarını zəbt olunmuş Azərbaycan ərazilərindən çıxarmalı və Böyük Sülh Sazişi üzərində işə başlamalıdır.

Sual olunur ki, bəs onda Ermənistan Böyük Sülh Sazişi üzərində işə başlamaqdan niyə imtina edir və bununla əlaqədar ATƏT-in Minsk Qrupunun həmsədrlərinin ən yüksək səviyyədə olan çağırışlarını niyə rədd edir?"

Mətbuat xidmətinin rəhbəri bildirib ki, Ermənistan xarici işlər naziri bu bəyanatla əslində ölkəsinin rəhbərliyinin danışıqlar prosesində yalan və möhtəkirlik əsasında yürütdüyü siyasətini bir daha ifşa edir. Ona görə də məqsədyönlü şəkildə danışıqlar prosesini pozan və Azərbaycana qarşı işğal və təcavüz nəticəsində yaranan mövcud status-kvonu saxlamağa çalışan Ermənistana münasibətdə sülhə məcburedici mexanizmlər, o cümlədən sanksiyaların tətbiq edilməsi ciddi surətdə nəzərdən keçirilməlidir.

**AzərTAc**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Biz tam üstünlüyü əldə etmişik





(Əvvəli 1-ci səhifədə)

Şübhəsiz, Silahlı Qüvvələrin döyüş qabiliyyətinin güclənməsində mühüm əhəmiyyət kəsb edən əsas amillərdən biri irimiqyaslı əməliyyat-taktiki təlimlərinin keçirilməsidir. Müasir silah və texnikaların sınaqdan keçirildiyi və bütün qoşun növlərinin təmsil olunduğu belə təlimlər şəxsi heyətin döyüş ruhunun yüksəlməsində də həlledici rol oynayır.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin aprelin 9-da yayımlanan məlumatında göstərildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, cəbhə bölgəsində genişmiqyaslı gecə təlimləri keçirilir. Müdafiə naziri general-polkovnik Zakir Həsənov səhra şəraitində yerləşdirilən hərbi hissələrin və texnikanın vəziyyəti ilə tanış olub və onların hazırlıq səviyyəsini yoxlayıb.

Həmçinin məlumatda qeyd edilir ki, Müdafiə Nazirliyinin rəhbərliyi poliqonda yaradılmış müxtəlif təlim nöqtələrinə baş çəkərək şəxsi heyətin, silah-sursatın və döyüş texnikalarının gecə təlimlərində iştirakı və ümumi hazırlıq üzrə görülən işlərin keyfiyyəti ilə maraqlanıb.

Hərbi texnikaların hazırlıq səviyyəsi ilə yaxından maraqlanan Müdafiə naziri silah-sursat və texnikalara cavabdeh olan şəxsi heyətin nümayəndələri ilə görüşüb, onlara lazımi tövsiyələrini bildirib. Əsgərlərin səhra şəraitinə də diqqət yetirən general-polkovnik Zakir Həsənov həmçinin səyyar ideoloji mərkəzdə olub, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun yüksəldilməsi üçün dəyərli fikirlərini çatdırıb. Həmçinin, nazir səhra tibb məntəqəsinə də baş çəkib və hərbi tibb işçiləri ilə görüşüb, qayğıları ilə maraqlanıb.

Nazirliyin Mətbuat Xidmətinin məlumatına görə, təlimlərə cəlb edilən şəxsi heyətlə Şəmkir rayon ictimaiyyətinin görüşü keçirilib. Rayon İcra Hakimiyyəti, Ağsaqqallar Şurası, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı, Qadınlar Şurası və digər qurumların nümayəndələrinin qatıldığı görüşdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov çıxış edərək Vətən və xalq qarşısında hər kəsin məsuliyyət daşıdığını vurğulayaraq gənc nəslin vətənpərvərlik tərbiyəsinin güclənməsində cəmiyyətin rolunu yüksək dəyərləndirib.



Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində Silahlı Qüvvələrimizdə qısa müddət ərzində xeyli iş görüldüyünü xüsusi qeyd edən Müdafiə naziri, ordunun əsgər və zabitlərinin, həmçinin, təlimlərə cəlb edilən şəxsi heyətin döyüş hazırlığının yüksək səviyyədə olduğunu vurğulayıb. General-polkovnik Zakir Həsənov dövlət rəhbərliyi tərəfindən ordu quruculuğuna göstərilən yüksək qayğıya cavab olaraq son vaxtlar ordumuzun döyüş ruhunun gücləndiyini, hərbi qulluqçuların qələbə əzmində olduğunu qeyd edib. "Ön xətdə döyüşçülərimizlə söhbətlərimdən də hiss edirəm ki, bu gün Vətənə və xalqa xidməti ömrünün mənası hesab edən əsgər və zabitlərimizin əhval-ruhiyyəsi yüksəkdir, onlar düşmənə sarsıdıcı zərbə endirməyə və işğalda olan ərazilərimizi azad etməyə tam qadirdirlər. Hər bir əsgərimiz, döyüşçümüz şəxsi fədakarlığı ilə qəhrəmanlıq göstərməyə hazırdır", - deyə nazir bildirib.

Məlumatda qeyd edildiyi kimi, təlimlərdə iştirak edən şəxsi heyətlə görüşən, silah-sursat və döyüş texnikası ilə tanış olan ictimaiyyət nümayəndələri son illər dövlət başçısının və ordu rəhbərliyinin həyata keçirdiyi məqsədyönlü islahatlar nəticəsində Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin güclənməsindən, ordunun maddi-texniki təminatının müasir tələblərə cavab verməsindən, əsgər və zabitlərimizin vətənpərvərlik ruhundan razı qaldıqlarını ifadə edərək əmin olduqlarını bildiriblər ki, Azərbaycan Ordusu torpaqlarımızı son qarışına kimi işğaldan azad edəcəkdir.

Sonda Gəncə Qarnizon Zabitlər Evi və Şəmkir hərbi birliyinin özfəaliyyət kollektivlərinin iştirakı ilə təqdim edilən konsert proqramı rayon fəalları və təlim iştirakçıları tərəfindən hərarətlə qarşılanıb.

**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan-ABŞ arasında ikitərəfli hərbi əlaqələrin razılaşdırılması üzrə konfrans keçirilib

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində Azərbaycan-ABŞ ikitərəfli hərbi əlaqələrinin razılaşdırılması üzrə konfrans keçirilib.

Konfransda ölkələrimiz arasında müdafiə sahəsində həyata keçirilən fəaliyyət və ikitərəfli əməkdaşlığın perspektivləri, "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Amerika Birləşmiş Ştatlarının Avropa Komandanlığı arasında hərbi əməkdaşlıq üzrə 2016-cı il uçun İş Planı"nın layihəsi müzakirə edilib.

Tədbirdə Azərbaycan tərəfdən Müdafiə Nazirliyinin müvafiq idarə və xidmətlərinin, eləcə də Silahlı Qüvvələrin üç qoşun növünün təmsilçiləri, ABŞ tərəfdən isə Avropa Komandanlığının, ABŞ-ın Azərbaycandakı Hərbi Attaşeliyinin və Hərbi Əməkdaşlıq ofisinin nümayəndələri iştirak ediblər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***9 aprel 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində minaatan və iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 45 dəfə pozub.

Ermənistan Respublikasının Noyemberyan rayonunun Dovex kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərindən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Çaylı, Qızıloba, Ağdam rayonunun Şıxlar, Şuraabad, Cəvahirli, Novruzlu, Qaraqaşlı, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

***10 aprel 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində minaatan və iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 59 dəfə pozub.

Ermənistan Respublikasının Berd rayonunun Çinari, Ayqepar kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli və Koxanəbi kəndlərində, İcevan rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Tərtər rayonunun Çiləbürt, Çaylı, Qızıloba, Göyarx, Ağdam rayonunun Şıxlar, Şuraabad, Cəvahirli, Qaraqaşlı, Yusifcanlı, Mərzili, Şirvanlı, Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

# İrimiqyaslı birgə təlimlərin gecə vaxtı döyüş atışı mərhələsi keçirilib













***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Silahlı Qüvvələrin bütün qoşun növlərinin cəlb olunması ilə aprelin 5-dən başlanan irimiqyaslı birgə təlimlərin gecə vaxtı döyüş atışı mərhələsi keçirilib.***

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov təlimlərə cəlb edilən birləşmə və hərbi hissə komandirlərinin qəbul etdikləri qərarları, planları və qərargahların fəaliyyəti barədə məruzələrini dinləyiblər. Təlimlərdə iştirak edən bütün qoşun növlərinin döyüş hazırlığının səviyyəsi, tapşırıqların yerinə yetirilməsinin operativliyi və səmərəliliyi, qarşılıqlı fəaliyyətin və hərtərəfli təminatın təşkili, qarşıya qoyulan tapşırıqların icrası, şəxsi heyətin, silahın və döyüş texnikasının gecə fəaliyyətinin hazırlığı ilə bağlı brifinq təqdim olunub.

Təlimin ssenarisinə əsasən, gecə şəraitində şərti döyüşdə iştirak edən əsas qüvvələr və himayə bölmələri tapşırıqları müvəffəqiyyətlə icra ediblər. Motoatıcı və tank bölmələri, raket və artilleriya qurğuları, zenit-raket kompleksləri, təyyarə və helikopterlər döyüş atışlarını və raket buraxılışlarını, o cümlədən bombalamanı həyata keçiriblər.

İlk dəfə gecə vaxtı və məhdud görmə şəraitində keçirilən birgə təlimlərin bütün elementləri dəqiq və peşəkarlıqla yerinə yetirilib. Təlimlərdə iştirak edən şəxsi heyətin döyüş hazırlığı, bacarığı və döyüş əzmi Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib.

Xatırladaq ki, təlimlərdə 15.000 nəfərədək şəxsi heyət, 200-dək zirehli texnika, raket və artilleriya qoşunlarının 300-dən artıq qurğusu, Hərbi Hava Qüvvələrinin 12 ədəd döyüş helikopteri və 8 ədəd döyüş təyyarəsi, həmçinin qruplaşmanın havadan mühafizəsi məqsədilə müasir müdafiə kompleksləri ilə silahlanmış hava hücumundan müdafiə bölmələri və zenit-raket birləşmələri iştirak edib. Təlimlər sona çatıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

*Qələbə - 70*

# Dünənin qəhrəmanlığı - bu günümüzün örnəyi

## Müdafiə Nazirliyi ilə Ağcabədi rayon İcra Hakimiyyətinin vətənpərvərlik mövzusunda birgə tədbiri keçirilib

> *"Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm ölkənin qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir".*
>
> Heydər ƏLİYEV

Müharibə siyasətin silahlı davamıdır. Bu, məlum...

Müharibə qan-qadadı, ölüm-itimdi, əsirlikdi, göz yaşıdı, sinə dağıdı...

Zaman keçdikcə müharibənin yaraları qaysaqlayır, sağalmır...

Atam Böyük Vətən müharibəsi iştirakçısıydı. Həmişə ağrı-acıyla xatırlayırdı olmuşları. Gözləri dolub-boşalırdı.

Bu, müharibə haqqında təsəvvürümü tamamlayırdı...

...Müharibədə neçə evlərin qapısı bağlı qaldı...

...Müharibədə neçə ananın, neçə bacının tellərini yellər apardı...

...Müharibə toyların səsini batırdı - İsa İsmayılzadənin "Səssiz toylar" poemasını xatırlayın...

...Xalqımızın tale cığırdaşı olan saz köklənmədi - İsa Hüseynovun "Saz" povestini xatırlayın...

O illərdən 70 il keçir...

O illərin səngər şahidlərinin - döyüşçülərin sayı azalıb - zamanın hökmü kimi. Nə o illər unudulacaq, nə də o illəri səngərlərdə yaşayanlar...

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən və əməkdar mədəniyyət xadimi polkovnik Abdulla Qurbaninin ssenarisi və rejissorluğu ilə Ağcabədidə keçirilən marafon-tədbir bu gerçəkliyin təzahürüdü.






Tədbirin mahiyyəti ehtiramdı, həm də mənəvi borcödəmədi. Bu ehtiram, bu borcödəmə 70 ildir yol gəlir, bizdən keçib də neçə 70 illərin o üzünə yol gedəcək. Elə bu inamın işığında da torpaqlarımızın işğaldan azad ediləcəyi günün ildönümlərini aydınlığı ilə görürəm. O günü görmək istəyi çırpınır veteranların baxışlarında.

Aparıcıların (Abdulla Qurbani, Məleykə Məmmədova) təqdimatı tədbirin mahiyyətinə "işıq tutur"; kəlmələr 70 ilin o üzündə qalan ağrı-acıların, qəhrəmanlığın, şücaətin, dəyanətin, sevginin, bəşərliliyin... tərcümanıdı. Göy üzü bu kəlmələrin istisindən isinir...

Hər şəhərdə, çox kənddə Böyük Vətən müharibəsi qəhrəmanlarına abidə ucaldılıb. Belə abidələr nəsil-nəsil ürəklərdə ucaldılır. Bugünkü tədbir də Abdulla Qurbaninin bədii yozumunda bir abidədi.

"Kəndimiz davadan
uzaq olsa da,
Dava kəndimizin
içindən keçib" -

beyti düşür yadıma. Azərbaycanda Qarabağ müharibəsinin ağrısını yaşamayan kənd yoxdu. Bu ağrı-acılar, göynərtilər tədbirə gələnlərin hamısının yaşantılarındadı...

Cavanların çoxu Qarabağ müharibəsini görməyib, amma onun ağrı-acılarını səngər görmüş, döyüş görmüş atalarından eşidiblər. Eşitdiklərindən hər birinin ürəyi burxulub. Ermənilər atəşkəsi pozanda, hamısının yumruğu düyünlənir. İndi Böyük Vətən müharibəsində Qələbənin 70 illiyinə həsr olunmuş tədbirdə onların baxışlarında qətiyyət görürəm, təpər, heysiyyət görürəm, sevgidən barınmış istək görürəm.





Bu sevgi Vətənə ad olan sevgidi; bugünkü tədbir o sevginin uvertürası təsirindədi...

Aparıcıların təqdimatı ilə 70 ilin o üzündəki yaşantılar anılır. Anılılanlara bu günün gözüylə baxanlar qürurlanır da, kövrəlir də; tədbirə toplaşanlara ikili məqam yaşadır.

Bir nənə gördüm. Alnında dolaşıq düşmüş qırışlar ötən illərdə qalmışların kitabəsidi elə bil. Kim bilir. 70 ilin o üzündə atalı illəri qalıb, qardaşlı, oğullu illəri qalıb. Faşist işğalçılarına Nürinberq məhkəməsi indi olsaydı, "Ən etibarlı şahid kimi belə nənələri eşidin!" - deyərdim...

Dava nədi? Nədir dava? -
70 ilin o üzündən
nənəm qarı dillənəcək,
Yetər qarı, Gülşən qarı,
Sənəm qarı dillənəcək:
Dən əvəzi üyüdəndi
Daşı-dağı müharibə.
Bacıların dərd balıncı,
Anaların sinə dağı - müharibə...

Böyük Vətən müharibəsində Ağcabədidən 500 nəfər iştirak edib. Həlak olanlar, "qara kağız"ı gələnlər, itkin düşənlər, qayıdandan sonra illər yaşayanlar...

Mehrali Axundovun baxışlarında dərd çiçəkləyib. 70 ilin o üzündə Ağcabədidən Berlinəcən döyüş yolu keçən bu kişi də digər veteranlar kimi "Torpaqlarımızın azad edilməsi üçün döyüş başlayan kimi məni də əsgər bilin" , - deyir. Yaşı 90-nı aşsa da, belə deyir. "Elliklə əsgərləşən xalqın torpaqları, təbii ki, işğaldan azad ediləcək" - düşünürəm.



Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev, Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi vəzifəsini icra edən polkovnik Rüfət Əmirov, rayon İcra Hakimiyyətinin, hərbi hissələrin nümayəndələri və millət vəkilləri böyük tarixi şəxsiyyət Heydər Əliyevin xatirəsinə onun abidəsi önünə tər çiçəklər qoymaqla öz ehtiram hisslərini ifadə edirlər...

Bağça yaşlı uşaqlar hərbi mundirdədi. Onların nizami yerişlə gəlişi, toplaşanlara əsgəri salam verməsi dönməz bir mətləbin təzahürüdü: Ordumuza ümumxalq rəğbəti var! Bu yaşda uşaqlar orduya, hərbçilərin yerişinə bələddirsə, bunu indidən özlərinin yerişinə örnək bilirsə, bu ordunun sabahları möhtəşəm olacaq!..

Tədbirin gedişində bu uşaqların ən balacasıyla söhbətləşə bildim. İlqar dilavər uşaqmış:

- Böyüyəndə mən də əsgər olacağam. Onda ermənilər qorxusundan güllə ata bilməyəcək, - deyir.

Canım Vətən, belə körpələrin var! Sən bu yaşda körpələrin də məbədisən! Belə uşaqlara Vətənin nə olduğunu izah eləməyə ehtiyac yoxdu. Bu tədbir onların Vətənli düşüncələrini bir daha Vətən sevgisinə kökləyir, şübhəsiz...

...İki "UAZ" görünür. Aparıcılar bu gəlişi heyrətləndirici bədii epitetlərlə elan edir: Böyük Vətən müharibəsində azərbaycanlılardan ibarət atıcı diviziyaların rəmzi döyüş bayraqları meydana gətirilir. Bayraqdarlar bir vaxtlar bu bayraqların işığında döyüşənlərdi - veteranlardı. Onların qürurunu sezmək çətin deyil; bu diviziyalar döyüşə-döyüşə müharibədə qəhrəmanlıq tarixi yazıb. Yüz illərlə anılacaq, həsəd aparılacaq tarix!..

Xüsusi təyinatlıları görüncə hamının ürəyi dağa dönür. Təmrinlərin dinamikası da, mürəkkəbliyi, çevikliyi də bir həqiqətin təzahürüdür: Azərbaycan əsgəri nələrə qadirdir! Sıralarında qız da var. Onun yerinə yetirdiyi təmrinlər meydanı dalğalandırır. Bir anlığa düşünürəm: oğul ifadəsi həm də xarakter göstəricisidi. Bu göstəricinin bir yozumu da qeyrətdi, şübhəsiz...

Təmrinlər yerinə yetirilir. Və... sonda çiyinlər bir-birinin postamenti olur. Nəticədə qala misallı bir düzülüş. Rəmzi olaraq Şuşa qalası. Ən ucada dayanmış xüsusi təyinatlı əsgər köynəyin sinəsindən üçrəngli bayrağımızı çıxarır, böyük sevgilərlə başı üzərində dalğalandırır. Abdulla Qurbaninin gur səsini eşidirik: Biz bu bayrağı Şuşa qalasında da dalğalandıracağıq! Mütləq dalğalandıracağıq! Bu səs xalqın istəyinin təzahürü kimi hamını riqqətə gətirir.

Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının qərarına və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən keçirilən "Xalq ilə ordu birdir" təşviqat marafonunun Ağcabədi mərhələsi bir həqiqətin təsdiqi gücündədi: xalq ordusunu sevirsə, xalq ordusuna inanırsa, ordu xalqını varlığıyla qoruyursa, bu birliyə, bu vəhdətə zaval yoxdu!..




Anatoli Davidoviç əslən ukraynalı olub. Böyük Vətən müharibəsində bu torpaqda minlərlə azərbaycanlının həlak olduğunu o da bilirdi. Qəlbinin hökmü ilə Azərbaycana gəlmişdi. Döyüşlərin birində şəhid oldu. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü. Marafonda qəhrəmanın həyat yoldaşı, oğlu və qardaşı da iştirak edir...

Müharibə veteranlarına qiymətli hədiyyələr təqdim edilir. Bu, mənəviyyatdan gələn bir deyimin yaşarılığından rişələnib: heç kəs unudulmur. Azərbaycanda daha dəruni istəklərlə təzahür edir bu deyim. Həm də Qarabağ işğaldan azad ediləndə veteranlarla yenə bir sırada dayanaq istəyiylə!..

...Hələ məktəblilərin müxtəlif xalqların milli geyimində ifa elədikləri mahnılar, rəqslər!..

...Hələ 4 yaşlı Şahsənəmin rəqsi!..

...Hələ o illərin yaddaşlardan silinməyən "Katyuşa" mahnısı!..

...Hələ topların meydana gətirilməsi...

...Hələ düşmənlə üzbəüz səngərlərdə dayanan əsgərlərin gəlişi...

...Hələ çağırışçı gəncin anasıyla, bacısıyla sağollaşması, sağollaşanda dediyi kəlmələr...



...Hələ H.Aslanov adına Mərkəzi Zabitlər Evi Mahnı və Rəqs Ansamblının solistlərinin ifasında səslənən mahnılar. İllah da rəqs qrupunun müşayiəti ilə Ağabala Abdullayevin ifa elədiyi "Gözlə məni" mahnısı. Ünvanı ürəklər olan yaşarı mahnılar hər səslənəndə təzə-tərdi...

Əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbaninin ssenarisi və rejissorluğu ilə Ağcabədidə keçirilən "Xalq ilə ordu birdir" təşviqat marafonu bir həqiqətin təsdiqi olur: Böyük Vətən müharibəsində Qələbənin 70 illiyinə bu səviyyədə sayğını görənlər bir daha inanır ki, Azərbaycan öz əzəli torpaqlarını azad edəcək, şəhidlər də, elan edilməmiş bu müharibənin iştirakçıları da unudulmayacaq!..

...Hamı əsgərdi. Torpaqlarımız işğaldan azad edilənə kimi hamımız əsgərik!

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Unutmayaq!

*1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:*

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## "Bakı-2015" Pekin və London Olimpiadalarından geri qalmayacaq

"Bu il ölkəmizdə təşkil ediləcək "Bakı-2015" Avropa Oyunları səviyyəsinə görə Pekin və London Olimpiadalarından heç də geri qalmayacaq ". AzərTAc xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində Azərbaycan Milli Avarçəkmə Federasiyasının (AMAF) vitse-prezidenti və "Kür" Olimpiya Tədris İdman Mərkəzinin baş direktoru Natiq Abbasov deyib. Avropa Oyunlarına hazırlıq işlərindən danışan Natiq Abbasov Mingəçevirdəki Olimpiya kəndində yeni binaların tikilib istifadəyə verildiyini diqqətə çatdırıb. O, hazırda idmançılar üçün otaqlarda mebellərin yerləşdirilməsinin davam etdiyini deyib: "Kayak və kanoe yarışlarında 350-yə yaxın idmançı iştirak edəcək. Olimpiya şəhərciyində 1500 idmançı və məşqçi yerləşdirmək imkanımız var ".

## IV İslam Həmrəyliyi Oyunlarına 2017-ci ildə Azərbaycan ev sahibliyi edəcək



IV İslam Həmrəyliyi Oyunlarına 2017-ci ildə Azərbaycanın ev sahibliyi etməsi ilə bağlı İslam Həmrəyliyi İdman Federasiyası (İHİF) ilə müqavilə imzalanıb.

AzərTAc xəbər verir ki, əvvəlcə Azərbaycan idmançılarının İslam Həmrəyliyi Müqaviləsinin əhəmiyyətini yüksək qiymətləndirən Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə idmançılarımızın bu yarışlardakı uğurları barədə məlumat verib. Yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən İHİF-in prezidenti, Səudiyyə Ərəbistanının gənclər və idman naziri, Səudiyyə Ərəbistanının Olimpiya Komitəsinin prezidenti Əlahəzrət Şahzadə Abdullah Bin Mosaad Bin Abdulaziz Al Saud Azərbaycanda idmana göstərilən dövlət qayğısını yüksək qiymətləndirib.

## Azərbaycan gimnastı Dünya Kuboku yarışında bürünc medal qazanıb

Azərbaycan gimnastı Rumıniyada başa çatan bədii gimnastika üzrə Dünya Kubokunun növbəti mərhələsində bürünc medal qazanıb. Dörd finalın hamısına vəsiqə alan Azərbaycan yığmasının lideri Marina Durunda lentlə hərəkətlərə görə bürünc medala sahib olub. Rumıniya paytaxtında Dünya Kuboku yarışının növbəti mərhələsinə paralel olaraq beynəlxalq turnir keçirilib. Bu turnirdə Azərbaycan gimnastları Ayşən Bayramova və Jalə Piriyeva fərqləniblər. Çoxnövçülükdə üçüncü yeri tutan, halqa və gürzlə hərəkətlərə görə iki gümüş medal qazanan senyorka Ayşən Bayramova yüksək nəticə göstərib. Jalə Piriyeva yuniorkalar arasında dörd hərəkətin yekunlarına görə ikinci olub, habelə halqa ilə finalda ən yaxşı nəticə göstərib. Bundan əlavə, onun hesabında iki gümüş (top, ip) və bir bürünc (gürz) medal var.

## Teymur Rəcəbov irəlilədi, Şəhriyar Məmmədyarov yerində qaldı



Beynəlxalq Şahmat Federasiyası (FİDE) yeni reytinq cədvəlini açıqlayıb. Apasport.az saytının məlumatına görə, mart üçün açıqlanan "Top-100"-də Azərbaycan təmsilçiləri də yer alıb. Qrossmeysterlərimizdən ən yaxşı nəticə yenə Şəhriyar Məmmədyarova məxsusdu. Həmyerlimiz ötən ayda olduğu kimi, yenə 13-cü yerdədi. Onun aktivində 2759 reytinq xalı var.

FİDE, həmçinin rapid və blits növləri üzrə də reytinq cədvəlini yeniləyib. Blits növündə isə Məmmədyarovla Rəcəbov yenə 7-8-ci yerlərə şərikdi. Onların aktivində 2808 xalı var.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Ehtiyatda olan mayor Yadigarov İlqar Heydər oğluna 1995-ci ildə verilmiş müharibə veteranı (MV №000503) vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 373
Nüsxə 4600